# Xarici işlər naziri Nyu Yorkda bir sıra görüşlər keçirib

Sentyabrın 21-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) İcraçı direktoru Maimunah Mohd Şərif ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, nazir Ceyhun Bayramov Azərbaycanın UN-Habitat ilə uğurlu və məhsuldar əməkdaşlıq əlaqələri qurduğunu bildirərək ölkəmizin UN-Habitat və tərəfdaşları tərəfindən təşkil olunan bir sıra tədbirlərdə, o cümlədən Dünya Şəhər Forumunun 11-ci Sessiyasında, "Yeni Şəhər Gündəliyi"nin icrası ilə bağlı irəliləyişin dəyərləndirilməsi məqsədilə ötən il BMT Baş Assambleyasının yüksəksəviyyəli tədbirində iştirak etdiyini vurğulayıb.

Ölkəmizin həmçinin UN-Habitat ilə birgə ötən ilin oktyabr ayında "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" - postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumunun təşkil olunması məmnunluq hissi ilə qeyd olunub. Bundan əlavə, Azərbaycan tərəfindən UN-Habitat ilə birgə cari il sentyabrın 29-dan etibarən "Şəhərsalma Həftəsi" çərçivəsində bir sıra yüksəksəviyyəli tədbirlər, o cümlədən 29 sentyabr - 1 oktyabr tarixlərdə Zəngilan və Bakıda "Dayanıqlı şəhərlər iqtisadi inkişafın və bərabərsizliklə mübarizənin aparıcı qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun təşkil olunacağı bildirilib və ölkəmizin ilk dəfə olaraq Ümumdünya Məskunlaşma Gününə evsahibliyi edəcəyi vurğulanıb.

Nazir, həmçinin 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən yenidənqurma və bərpa işlərinə toxunaraq bu istiqamətdə UN-Habitat ilə qurulmuş uğurlu əməkdaşlıq əlaqələrinin vacibliyini diqqətə çatdırıb.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

❖ ❖ ❖

Sentyabrın 22-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovla görüşüb.

Xarici İşlər Nazirliyindən bildirilib ki, görüş zamanı Azərbaycan və Rusiya arasında əməkdaşlıq məsələləri, habelə bölgədə son vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilən antiterror tədbirləri zamanı Rusiya sülhməramlı kontingentinin üzvlərinin həlak olması ilə bağlı Rusiya Federasiyasına və həlak olan şəxslərin ailələrinə dərin hüznlə başsağlığı verib. Məsələ ilə bağlı araşdırma aparıldığı və istintaq tədbirləri barədə məlumat verilib.

Ceyhun Bayramov ölkəmiz tərəfindən Qarabağ bölgəsində beynəlxalq hüquq və Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata zidd olaraq mövcudluğunu davam etdirən qeyri-qanuni erməni silahlı birləşmələrinə qarşı görülən antiterror tədbirləri barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

24 saatdan az bir zaman çərçivəsində həyata keçirilən antiterror tədbirlərinin 30 ilə yaxın işğal dövründən qalma, sonrakı mərhələlərdə, hətta postmünaqişə dövründə belə Ermənistan tərəfindən maliyyələşdirilən və dəstəklənən qanunsuz hərbi mövcudluğun varlığına son qoyulması ilə uğurla yekunlaşdığı qeyd olunub.

Hazırda isə bölgədə müvəqqəti yerləşmiş Rusiya sülhməramlı kontingenti ilə koordinasiya edilərək, ciddi şəkildə hərbiləşmiş erməni silahlı qüvvələrinin silahsursatının müsadirəsi istiqamətində tərəfimizdən əməli addımların atıldığı diqqətə çatdırılıb.

Bu prosesə paralel olaraq, Azərbaycan tərəfindən Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə reinteqrasiya prosesi istiqamətində dialoqun irəlilədildiyi, bu xüsusda ötən gün Yevlax şəhərində Azərbaycan hökuməti və yerli erməni sakinlərin nümayəndələri arasında keçirilmiş görüşün nəticələrinə uyğun olaraq, bölgədə yaşayan dinc əhalinin ehtiyaclarının qarşılanması istiqamətində işlərin görüldüyü diqqətə çatdırılıb. Bu baxımdan, nazir Ceyhun Bayramov antiterror tədbirlərinin həm bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi, həm də erməni sakinlərin reinteqrasiyası baxımından görülən işlərin intensivliyini artıracağına inandığımızı, bundan sonra da qeyd olunan istiqamətlərdə səylərimizi davam etdirəcəyimizi bildirib.

Görüşdə həmçinin iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyində duran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Sentyabrın 22-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsində iştirak məqsədilə Nyu York şəhərinə işgüzar səfəri çərçivəsində Pakistan İslam Respublikasının xarici işlər naziri Cəlil Abbas Cilani ilə görüşüb.

Nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud strateji əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edib və ikitərəfli münasibətlərin inkişaf perspektivlərini vurğulayıb.

Nazir Ermənistan və onun yaratdığı qondarma rejim tərəfindən həyata keçirilən hərbi-siyasi təxribatlar barədə qarşı tərəfə ətraflı məlumat verib.

Bölgədə həyata keçirilmiş antiterror tədbirinin əsas məqsədinin qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah edilməsi və qanunsuz rejimin buraxılması olduğu diqqətə çatdırılıb. Silahlı Qüvvələr tərəfindən həyata keçirilən lokal antiterror tədbirinin müstəsna olaraq legitim hərbi hədəflərə qarşı aparıldığı, Ermənistanın qanunsuz hərbi infrastrukturunu zərərsizləşdirmək məqsədi güddüyü qeyd edilib. Azərbaycanın mülki əhalini və obyektləri deyil, yalnız qeyri-qanuni erməni silahlı birləşmələrini hədəf aldığı vurğulanıb.

Cəlil Abbas Cilani hər zaman olduğu kimi, Pakistanın Azərbaycanın ərazi bütövlüyünü və suveren ərazilərində həyata keçirdiyi legitim addımları dəstəklədiklərini diqqətə çatdırıb.

Görüş zamanı tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələləri müzakirə ediblər.

❖ ❖ ❖

Sentyabrın 22-də Nyu Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsində iştirakı çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov Albaniyanın Avropa və xarici işlər naziri İgli Hasani ilə görüşüb.

Görüşdə Azərbaycan və Albaniya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, habelə beynəlxalq təşkilatlar çərçivəsində tərəfdaşlıq imkanları müzakirə edilib. Son dövrlərdə iki ölkə arasında yüksəksəviyyəli təmasların, o cümlədən qarşılıqlı səfərlərin intensivliyindən məmnunluq ifadə olunub.

Nazir Ceyhun Bayramov həmkarını bölgədəki son vəziyyət, habelə Azərbaycanın Qarabağ regionunda lokal antiterror tədbirini şərtləndirən səbəblər, Azərbaycan-Ermənistan arasında normallaşma prosesi, Azərbaycanın Qarabağ bölgəsində erməni əhalinin reinteqrasiyası istiqamətində atılmış addımlar barədə məlumatlandırıb.

Görüşdə Azərbaycanın cəlb olunmuş beynəlxalq tərəfdaşlar vasitəsilə həyata keçirdiyi səylərinə baxmayaraq, Ermənistan və onun ərazilərimizdə qurduğu qondarma rejimin təhrikçi və təxribatçı əməllərinin bölgədə gərginliyə səbəb olduğu vurğulanıb. Azərbaycan tərəfindən görülən tədbirlərin Ermənistanın qanunsuz hərbi infrastrukturunu zərərsizləşdirmək, erməni silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək ərazilərimizdən çıxarmaq məqsədi daşıdığı və bunun suveren ərazilərimizdə təhlükəsizliyi qorumaq məqsədilə beynəlxalq hüquq və Konstitusiyamızdan irəli gələn hüquqlara tamamilə uyğun olduğu bildirilib.

Bu gün bölgədə Azərbaycanın Qarabağ regionunun erməniəsilli sakinlərinin praktiki olaraq reinteqrasiyasına tarixi bir imkanın yarandığını diqqətə çatdıran nazir Ceyhun Bayramov Yevlaxda keçirilmiş görüşün müsbət nəticələr gətirəcəyinə əminliyini ifadə edib.

Görüşdə tərəflər həmçinin iki ölkə arasında gündəlikdə duran enerji, ticari, iqtisadi məsələlər, habelə mövcud sərmayə imkanları, eləcə də qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparıblar.

*AZƏRTAC*

Azərbaycan.- 2023.- 23 sentyabr.- S.3.